# “Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 22 aprel tarixli 184-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 5**

**Bakı şəhəri, 9 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 22 aprel tarixli 184-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 5 sentyabr tarixli 383 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1537 (Cild I) ilə təsdiq edilmiş “Mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə bağlı təlim Qaydası”na aşağıdakı məzmunda 3.9-cu bənd əlavə edilsin:

“3.9. Mediatorların ilkin hazırlığı üzrə təlimi bitirmiş şəxslərə verilən sertifikatın qüvvədə olma müddəti beş ildir.”.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 5 sentyabr tarixli 385 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1539 (Cild I); 2024, № 4, maddə 481) ilə təsdiq edilmiş “Mediasiya prosesinin həyata keçirilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. aşağıdakı məzmunda 2.3.2-1-ci yarımbənd əlavə edilsin:

“2.3.2-1. Qanunun 36.7-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, mediasiya xərclərini ödəmək;”;

2.2. 7-ci hissə üzrə:

2.2.1. 7.1-ci və 7.4-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

“7.1. Mediasiya prosesi Qanunun 22-ci maddəsində nəzərdə tutulmuş “mediasiya prosesinin tətbiqi barədə müqavilə” bağlanıldığı, Qanunun 28-ci və 29-cu maddələrində nəzərdə tutulmuş hallarda isə tərəflərin və ya onlardan birinin ilkin mediasiya sessiyasında iştirak etdiyi andan başlanmış sayılır.”;

“7.4. Qanunun 21.8-ci və 29.2-ci maddələrində nəzərdə tutulmuş hallarda tərəflər və ya onlardan biri mediasiya sessiyasında iştirak etmədikdə və ya iştirak etməkdən yazılı şəkildə imtina etdikdə müvafiq olaraq mediasiya prosesinə bu Qaydanın 12.1.3-cü yarımbəndinə əsasən avtomatik xitam verilir və ya mediator ilkin mediasiya sessiyasında iştirak edən və etməyən tərəfləri qeyd etməklə, “İlkin mediasiya sessiyasında iştirak edilməməsi” ilə bağlı arayışı iştirak edən tərəflərə təqdim edir.”;

2.2.2. 7.2-ci bənd ləğv edilsin;

2.3. 12-ci hissə üzrə:

2.3.1. 12.1.8-ci yarımbəndə “çıxarıldıqda” sözündən sonra “və ya mediator və ya mediasiya təşkilatının mediasiya fəaliyyətini həyata keçirmək hüququ dayandırıldıqda” sözləri əlavə edilsin;

2.3.2. 12.1.9-cu yarımbənddən “21.8-ci,” sözləri çıxarılsın;

2.3.3. 12.2-ci bəndin birinci cümləsində “11.1.2–11.1.8-ci” sözləri “12.1.2-12.1.8-ci” sözləri ilə əvəz edilsin və həmin bəndin ikinci cümləsinə “tərəfindən” sözündən sonra “müvafiq qeydlər edilməklə” sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Azərbaycan.- 2026.- 10 yanvar (№5).- S.4.